KASPI

# “Mirzə Cəlil” Media Mükafatı təqdim olundu

## Mükafata layiq görülənlər sırasında ”Kaspi” qəzeti də var

**Bu gün Beynəlxalq Mətbuat Mərkəzində ”Mirzə Cəlil” Media Mükafatının təqdimetmə mərasimi keçirildi. Mükafat haqqında ətraflı məlumat verən ”Mirzə Cəlil” Media Mükafatının Təşkilat Komitəsinin sədri Aqil Ələsgər bildirdi ki, mükafatın məqsədi jurnalistika sahəsində xidmətləri olan şəxslərin fəaliyyətlərinin qiymətləndirilməsidir:**






”Məqsəd onların əməyinin medianın və bütövlükdə cəmiyyətin inkişafı üçün prioritet səciyyə daşıyan istiqamətlərini ictimaiyyətə çatdırmaqdan, jurnalistikanın cəmiyyət həyatındakı rolunun artırılmasını stimullaşdırmaqdan ibarətdir. Mükafatın predmeti ölkədə jurnalistikanın inkişafı sahəsində yüksək xidmətləri olan şəxslərdir”.

Mükafatın Münsiflər Heyətinin üzvü, Xalq şairi Sabir Rüstəmxanlı isə çıxışında Mirzə Cəlil ənənələrindən danışdı. Bildirdi ki, Mirzə Cəlil həm sovet dönəmində, həm də müstəqillik zamanı tənqidçi, satirik medianın yaranmasında və inkişafında mühüm rol oynayıb. Cəlil Məmmədquluzadə yaradıcılığı barədə geniş danışan S.Rüstəmxanlı dedi ki, bu şəxsin millətin tərəqqisi yolunda böyük ideoloq olduğu həm də ətrafındakı ziyalı və qeyri-ziyalını öz səviyyəsinə, ucalığına qaldırmağı ilə ölçülür.

Münsiflər Heyətinin üzvləri - Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu, Azərbaycan Mətbuat Şurasının icraçı katibi Rəhim Hüseynzadə, Mətbuat Şurasının üzvü Azər Həsrət də çıxışlarında Mirzə Cəlil yaradıcılığından danışdılar və mükafatın aktuallığını, günümüzdə ona olan ehtiyacı müzakirə etdilər.

Daha sonra isə mükafat iştirakçılara təqdim edildi. Mükafatçılar arasında professor Şirməmməd Hüseynov, BDU Jurnalistika fakültəsinin müəllimi Nəsir Əhmədli, ”Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu, ”Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı, fotoqraf Elxan Kərimov (ölümündən sonra), Lent.az Xəbər Portalının baş redaktoru Qabil Abbasoğlu, İTV-nin İnformasiya Departamentinin direktoru Rauf Rəcəbov, ”Trend” İnformasiya Agentliyinin direktor müavini Arzu Nağıyev, ”Azadinform” İnformasiya Agentliyinin baş redaktoru Niyaz Niftiyev, ”Kaspi” qəzetinin baş redaktoru İlham Quliyev, ”Birlik” jurnalının baş redaktoru İlqar İlkinin də adları var.

Televiziyalardan isə ”Mədəniyyət”, Azad Azərbaycan, Lider, Region və Dünya telekanalları Mirzə Cəlil ideyalarının təbliğindəki işlərinə görə Münsiflər Heyəti tərəfindən mükafatlandırıldılar.

Sonda Münsiflər Heyətinin üzvü, xalq şairi Sabir Rüstəmxanlı tədbirə verdiyi dəstəyə görə, iş adamı Məlahət Qurbanovaya ”Təşəkkürnamə” təqdim etdi.

**Şəfa Tapdıq**